# Vətən oğullarının nəşi torpağa tapşırıldı



## Abşeron

Azərbaycan xalqının qələbə qazandığı Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən yenidənqurma və abadlıq işləri zamanı Birinci Qarabağ savaşında itkin düşmüş Azərbaycan hərbçilərinin nəşləri aşkarlanır.

Aparılmış araşdırmalar zamanı 32 ildir itkin düşən və şəxsiyyəti müəyyən olunan şəhid hərbçilərimizdən biri də Abşeron rayonu Xırdalan şəhər sakini, 1973-cü il təvəllüdlü Əliyev Rövşən Məcid oğludur. Onun nəşi Xırdalan şəhər Şəhidlər xiyabanında dəfn olunub. Dəfn mərasimində Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları və rayon ictimaiyyəti iştirak edib.

Rövşən Məcid oğlu Əliyev 1973-cü il martın 20-də Abşeron rayonunun Xırdalan şəhərində anadan olub. 1991-ci ildə ailə həyatı quran Rövşən tezliklə sovet ordusu sıralarında hərbi xidmətə çağırılıb və Kazan şəhərində qulluq etməyə başlayıb. Lakin erməni təcavüzü zamanı Rövşən Əliyev sovet ordusunda qulluqdan imtina edərək doğma yurduna qayıdır. 1991-ci ildən Qazax bölgəsində Milli Ordu sıralarında xidmətə başlayır. 1992-ci ildə Yevlax batalyonu tərkibində vuruşur. Ailədə 3 bacının yeganə qardaşı və 2 qız atası olan Rövşən Əliyev 1992-ci il dekabr ayının 10-da Laçın rayonu ərazisində erməni daşnaklarına qarşı aparılan hərbi əməliyyatlar zamanı itkin düşür.

Dəfn mərasimində şəhidin ailə üzvləri bildiriblər ki, neçə illərdir şəhid Rövşən Əliyevin nəşinin tapılmasını və ziyarət edəcəkləri qəbrinin olmasını arzulayıblar. R.Əliyevin şəhidlik zirvəsinə layiq şəkildə dəfn edilməsini yüksək dəyərləndirən ailə üzvləri dövlət başçısına təşəkkürlərini bildiriblər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

❖ ❖ ❖

## Şirvan

Elman Almaz oğlu Çıraqov 32 il əvvəl Ağdərə uğrunda gedən döyüşlərdə canını fəda edən Vətən oğullarından biri olub. O, naməlum şəhid kimi Tərtər Şəhidlər xiyabanında dəfn olunmuşdu. Aprel ayında kimliyi məlum olan Elman Çıraqovun nəşinin qalıqları ata-baba yurdu Şirvan şəhərində torpağa tapşırılıb. AZƏRTAC xəbər verir ki, şəhid Elman Çıraqovun nəşi Şirvanda izdihamla qarşılanıb, ailəsinin yaşadığı evə gətirilib. Şəhidlə vida mərasimi olub və cənazə namazı qılınaraq şəhidlərimizin ruhuna dualar oxunub.



Sonra şəhidin nəşi dəfn üçün Şəhidlər xiyabanına gətirilib. Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, icra hakimiyyətinin rəhbərliyi, ictimaiyyət nümayəndələri, rayon sakinləri, qazilər, şəhid ailələri, media nümayəndələri iştirak ediblər. Şəhidlərimizin ruhuna dualar oxunub. Daha sonra şəhid Elman Çıraqovun nəşinin qalıqları torpağa tapşırılıb.

Qeyd edək ki, Elman Almaz oğlu Çıraqov 1971-ci ildə Şirvan şəhərində dünyaya göz açıb. Vətənin dar günündə könüllü olaraq döyüşlərə qoşulub. 1992-ci ildə Ağdərənin Çıldıran kəndi ərazisində gedən döyüşlər zamanı şəhid olub və Tərtər Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn edilib. Ötən müddət ərzində ailəsi onun haqqında hər hansısa məlumat ala bilməyib.

Bu il aparılan ekshumasiya işləri nəticəsində kimliyi bilinən 73 nəfərdən biri də Elman Çıraqov olub.

❖ ❖ ❖



## Gəncə

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan və kimliyi müəyyənləşdirilən Ədalət Vilayət oğlu Abbasovun meyitinin qalıqları Daşkəsən rayonuna gətirilib. AZƏRTAC xəbər verir ki, şəhid Ədalət Vilayət oğlu Abbasovun nəşi Daşkəsəndə izdihamla qarşılanaraq, ailəsinin yaşadığı Xoşbulaq kəndinə aparılıb. Şəhidin ailəsinin yaşadığı evdə cənazə namazı qılınıb, dualar oxunub. Sonra şəhidin nəşi Gəncə Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Şəhidin vida mərasimində Daşkəsən Rayon İcra Hakimiyyətinin əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri, şəhid ailələri, müharibə veteranları və rayon sakinləri iştirak ediblər. Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub və yaylım atəşi açılıb.

Qeyd edək ki, şəhid Ədalət Vilayət oğlu Abbasov 1992-ci ildə Ağdərə rayonunun Çıldıran kəndi uğrunda gedən döyüşlərdə itkin düşmüş sayılırdı. Onun Tərtərin Şəhidlər xiyabanında torpağa tapşırıldığı müəyyənləşib və nəşinin qalıqları ekshumasiya olunub.

Azərbaycan.-2024.- 8 iyun, № 120.- S.11.